# Ucarda 250 məcburi köçkün ailəsi üçün yeni yaşayış məhəlləsi istifadəyə verilib

**Dekabrın 29-da Ucarda məcburi köçkünlər üçün yeni yaşayış kompleksi istifadəyə verilib. Bu kompleks rayon ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşan məcburi köçkün ailələri üçün salınıb. Açılış mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, rayon icra hakimiyyətinin başçısı Mənsur Məmmədov, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Mahir Abbaszadə iştirak ediblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bütün zəruri sosial-texniki infrastrukturu olan məhəllənin tikintisi "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlər çərçivəsində aparılıb. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınmış sayca 109-cu qəsəbədir.

Yeni yaşayış məhəlləsinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə çıxış edən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev yeni mənzillərə sahib olacaq 250 məcburi köçkün ailəsini təbrik edib, ölkəmizdə qaçqınların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən, Prezident İlham Əliyevin bu sahədə göstərdiyi diqqət və qayğıdan danışıb.

Rayon icra hakimiyyətinin başçısı Mənsur Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşların, o cümlədən qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən söz açıb, yeni mənzillərdə onlara rahat həyat, xoş güzəran arzulayıb.

Mərasimdə çıxış edən Ağdam rayonundan olan məcburi köçkünlər Zöhrə Əliyeva, Məhruzə Bayramova və Şiraz Tağıyev yaşadıqları köçkün həyatının çətinliklərindən sonra onlara rahatlıq gətirəcək yeni mənzillər üçün sevindiklərini söyləyib, bunun üçün Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra Ağdamın Əhmədavar kəndindən olan məcburi köçkün Cəmilə Tağıyeva ilə yeni mənzildə görüş keçirilib. AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində həyat yoldaşının və qardaşının ermənilərlə döyüşdə şəhid olduqlarını söyləyən Cəmilə xanım hər cür şəraiti olan, bütün zəruri mebel avadanlıqları ilə təchiz edilən yeni mənzilin ailəsi üçün böyük hədiyyə olduğunu bildirib: "Neçə ildir ki, köçkün həyatı yaşayırıq. Çətinliklərimiz az olmayıb. Bu gün isə rahat mənzilimiz var. Bu rahatlığımız üçün sevimli Prezidentimiz İlham Əliyevə ailəmiz adından dərin minnətdarlığımı bildirirəm. İnşallah torpaqlarımız alınar, öz yurdumuzda məskən salarıq".

Daha sonra püşkatma yolu ilə mənzillərin bölgüsünə başlanıb.

Qeyd edək ki, yeni yaşayış məhəlləsi Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən layihələndirilib və tikilib. Ayrılan 4 hektar torpaq sahəsində tikinti işlərinə 2019-cu ilin may ayında başlanılıb.

Yaşayış kompleksində hər biri beşmərtəbəli olmaqla altı ədəd yaşayış binası tikilib. Qəsəbədəki mənzillərdən 25-i birotaqlı, 110-u ikiotaqlı, 100-ü üçotaqlı, 15-i isə dördotaqlıdır. Yaşayış məhəlləsində 220 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi tikilib, müvafiq mühəndis-kommunikasiya şəbəkələri yaradılıb, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Kompleksin elektrik təchizatını təmin etmək məqsədi ilə yaxınlıqda yerləşən "Ucar" yarımstansiyasının açıq paylayıcı qurğularında yenidənqurma işləri aparılıb və yarımstansiyanın ərazisində 10 kV-luq yeni qapalı paylayıcı qurğu binası tikilib. Məhəlləyə 4,73 kilometr uzunluğunda 2 dövrəli elektrik verilişi xətti çəkilib, transformator məntəqəsi tikilib və 2 ədəd güc transformatoru quraşdırılıb.

İçməli su təchizatını təmin etmək üçün yaxınlıqdan keçən mövcud magistral su kəmərindən 0,37 kilometr uzunluğunda boru kəməri çəkilib, 2 ədəd (içməli və yanğın üçün) su anbarı, 1 ədəd su nasosxanası tikilib. Ərazidə sahədaxili içməli su və yanğına qarşı 2 kilometr su şəbəkəsi tikilib və 7ədəd yanğın hidrant quraşdırılıb.

Qaz təchizatını təmin etmək məqsədi ilə mövcud qaz xəttinə qaynaq üsulu ilə qoşulmaqla 4 kilometrlik qaz xətti çəkilib. Ərazidə sahədaxili qaz xətləri çəkilib və sosial obyektlərə gedən qaz xətləri üzərində 2 ədəd qaz tənzimləyici quraşdırılıb. Qaz xətlərinin ümumi uzunluğu 5,579 kilometr təşkil edir.

İstilik təchizatı üçün mənzillərdə qazla işləyən kombi tipli su qızdırıcılar quraşdırılıb. 220 yerlik məktəb binasının istilik təchizatı üçün qazla işləyən 2 ədəd və 100 yerlik uşaq bağçasının istilik təchizatı üçün isə 2 ədəd qızdırıcı qazanlarla təmin edilən qazanxana binaları tikilib.

Ərazidə 1,8 kilometr uzunluğunda videomüşahidə kabelləri çəkilib və binaların hər birində videomüşahidə kameraları quraşdırılıb.

* * *

Dekabrın 29-da Göyçay rayonunda da 80 məcburi köçkün ailəsi üçün içməli su, elektrik enerjisi, təbii qaz və istilik sistemi ilə tam təchiz olunan yeni yaşayış binası istifadəyə verilib. Açılış mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Mahir Abbaszadə iştirak ediblər.



AZƏRTAC